# MURADOV RİZVAN TELMAN OĞLU



Rizvan Muradov 1996-cı ildə Sabirabad rayonunun Çiçəkli kəndində anadan olub. 2015-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabirabad rayon şöbəsindən hərbi xidmətə çağırılıb. 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən "Aprel döyüşləri" zamanı qəhrəmancasına şəhid olub. Aprelin 4-ü Rizvan Muradov doğulduğu Sabirabad rayonunun Çiçəkli kəndində son mənzilə yola salınıb. Rizvan Muradov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.